Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu**

# Hüquqi dövlət quruculuğu xaricdən siyasi təzyiqlər altında gedir...

**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən fəal xarici siyasət ölkəmizin milli maraqlarının təmin edilməsini, beynəlxalq mövqelərinin daha da möhkəmlənməsini və regional lider kimi qüdrətinin artmasını şərtləndirir. Bizim diplomatiyamız çox çevik olmalıdır. Biz bölgədə və dünyada baş verən proseslərə çox operativ qiymət verməliyik. Eyni zamanda, öz təkliflərimizi verməliyik.**



Bölgədə Azərbaycanın mövqeyindən artıq çox şey asılıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə, - nə siyasi, nə iqtisadi, nə də başqa, - həyata keçirilə bilməz. Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi, milli maraq və mənafelərini yüksək səviyyədə müdafiə etməsi, qlobal təhdid, çağırış və risklərə adekvat cavab verməsi, xarici siyasət yeritməsindən bilavasitə asılıdır. Bu sahədə müsbət nəticələri təmin edən vacib amillərdən biri də milli və bəşəri mənafelərin mümkün dərəcədə uzlaşdırılması, habelə dəqiq hədəflərə hesablanmış xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsidir.

### Azərbaycan dövlətinin milli - suveren siyasi iradəsi onu tələb edir ki...

İnsanların qərinələr boyu təcrübədən uğurla çıxardığı demokratik-liberal dəyərlər hazırda dünya ölkələrinin əksəriyyətində milli inkişaf strategiyası kimi müəyyənləşdirilmiş, dövlət idarəçiliyinin, birgə yaşayışın, vətəndaş-hakimiyyət münasibətlərinin tənzimlənməsinin ən ahəngdar, sivil forması kimi dəyərləndirilib. Daxildə möhkəm ictimai-siyasi sabitliyə, qanunçuluğa, effektiv sosial-iqtisadi islahatlara nail olmadan, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda kompleks addımlar atmadan xarici siyasət sahəsində hansısa uğurlu nəticələr əldə etməyin qeyri-mümkünlüyü hazırda bütün dövlətlər tərəfindən etiraf olunur.

### Milli maraqlar Azərbaycanın xarici siyasət kursunun əsasını təşkil edir

Ümumiyyətlə, regionda, bütövlükdə, Avrasiya geosiyasi məkanında baş verən son mürəkkəb geosiyasi hadisələrin nəticələri bir daha göstərdi ki, həyata keçirilən balanslaşdırılmış siyasət Azərbaycanın müstəqil xarici siyasət kursunun əsasını təşkil etməklə yanaşı, ölkəmizin beynəlxalq münasibətlərdə uğurla təmsil olunmasını təmin edir. Azərbaycan öz xarici siyasətini, ikitərəfli və çoxtərəfli əlaqələrini sırf beynəlxalq hüquq normaları əsasında davam etdirir.

Dolayısıyla, əldə edilən nailiyyətlər Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə, əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verir, eyni zamanda, perspektiv nailiyyətlər üçün strateji zəmin rolunu oynayır.

Amma bütün bunlara baxmayaraq, bəzi dairələr Azərbaycanın müstəqil xarici siyasətini narahatlıqla qarşılayır, bu kontekstdə öz məhdud geosiyasi maraqları naminə ölkəmizin daxili və xarici siyasət kursuna müdaxilə etməyə çalışırlar. Azərbaycan dövlətinin milli - suveren siyasi iradəsi onu tələb edir ki, ikitərəfli münasibətlər sırf qarşılıqlı hörmət əsasında davam və inkişaf etdirilsin, milli maraqlar əsas strateji prinsip kimi qəbul edilsin.

### Belə bir cəmiyyətdə inkişafa, yüksəlişə ümid etməyə dəyər

Dövlət başçısının bildirdiyi kimi: "Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə bax bu istiqamətdə gedəcəyik".

Dünyada nə qədər dəyişikliklər baş versə də, yeni prinsplər, meyarlar, dəyərlər meydana çıxsa da, istər insanlar, istərsə də dövlətlər üçün vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu öz aktuallığını yenə də qorumaqdadır. Dünyanın bir parçası olan Azərbaycanda da insan hüquqlarının müdafiəsi və hüquqi dövlət prioritet məsələ olaraq qəbul edilir və elə buna görə də sözügedən sahədə davamlı şəkildə, mütəmadi olaraq islahatlar aparılır. Təsadüfi deyil ki, Azərbacan dövlətinin hər bir vətəndaşın qarantına çevrildiyi bütün dünyada qəbul olunur, çünki ölkəmizdə vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. Nəzərə almaq lazımdır ki, vətəndaşların hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyətindən, nə də hüquqi dövlətdən danışmaq olmaz və elə buna görə də dövlətimiz vətəndaş hüquqlarının, azadlıqlarının keşiyindədir.

Hər bir cəmiyyət hüquqi dövlət qurmaqda, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaqda maraqlıdır. Azərbaycanda qanunun aliliyini təmin edən hüquqi dövlət qurulması, eləcə də vətəndaş cəmiyyətinin bərqərar olması bizim üçün də qürurvericidir. İlk növbədə ona görə ki, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin olması ölkədə demokratiyanın, demokratik cəmiyyətin olduğunu təsdiq edir. Elə bu baxımdan da ölkəmizdə hüquqi dövlətin qurulmasına və vətəndaş cəmiyyətinin bərqərar olmasına görə fəxr etməyə hər birimizin haqqı çatır. Belə bir cəmiyyətdə inkişafa, yüksəlişə ümid etməyə dəyər və biz bu inkişafın da, yüksəlişin də artıq şahidiyik.

***Məhəmmədəli QƏRİBLİ***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***